# Sinifdənxaric oxu dərslərində istifadə olunan folklor mətnlərinin əxlaq tərbiyəsində rolu

**Aynur Kirman qızı Qulusoy**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aynur82app@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. A.H. Hüseynova,
filol.ü.f.d., dos. Q.N. Süleymanova

**Açar sözlər:** ibtidai sinif, müəllim, şagird, qavrama, vərdiş, informasiya, mətn
**Ключевые слова:** начальная школа, учитель, ученик, восприятие, привычка, информация, текст
**Key words:** primary school, teacher, pupil perception, habit, information, text

Sinifdənxaric oxunun təşkili üzrə aparılan işlər ibtidai siniflərdə oxu təliminin mühüm sahələrindəndir. Bu işin səmərəli təşkili isə şagirdlərin intellektual və emosional inkişafına, həmçinin müxtəlif fənlər üzrə biliklərin dərindən və şüurlu mənimsənilməsinə güclü təsir göstərir.

Sinifdənxaric oxunun məqsədi I-IV sinif şagirdlərinin oxu və yazı vərdişlərinin təkmilləşdirilməsini təmin etməklə, təbiət və ictimai həyat haqqında onların dərsliklərdən aldıqları bilikləri genişləndirmək, təfəkkürünü bədii obrazlarla zənginləşdirmək, nitqini, fantaziyasını inkişaf etdirmək, vətənə, xalqa, ana dilinə, elmə və s. məhəbbət hissləri tərbiyə etmək, humanizm aşılamaq, onlarda kitabla müstəqil işləmək həvəsi yaratmaqdır.

İnformasiyalar axının təsəvvürəgəlməz dərəcədə artdığı indiki şəraitdə gənc nəslin təlim-tərbiyə sahəsindəki tələbatını sinifdə yalnız oxu dərslərinin keçirilməsi ilə ödəmək mümkün deyil. Ona görə də bu tələbatı ödəmək məqsədi ilə sinifdənxaric məşğələlərdə ibtidai sinif şagirdlərinə proqramın tələblərinə uyğun bədii (nağıl, hekayə, şeir və s.) və elmi-kütləvi əsərləri, qəzet və jurnal məqalələri oxunub müzakirə etdirilməli, təlim-tərbiyə əhəmiyyəti olan nəticələr çıxarılmalıdır.

Birinci siniflərin "Sinifdənxaric oxu" dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri

Birinci sinifdə keçirilən Sinifdənxaric oxu dərsliyində verilən mətnlər bu şəkildə qruplaşdırılmışdır;

1. Payız
2. Qış
3. Bahar
4. Yay
5. Vətənim
6. Laylalar, bayatılar, tapmacalar, təmsillər, nağıllar

Göründüyü kimi, hələ ilk sinifdən başlayaraq, kiçikyaşlı məktəblilərin folklor örnəkləri ilə tanış olmalarına xüsusi diqqət yetirilir. Beləliklə, dərsliyin 6-cı bölməsində ilk olaraq, laylalarla şagirdlərin tanışlığı başlayır. Məlumdur ki, laylalar beşik başında anaların xüsusi ritm və ahənglə zümzümə etdiyi nəğmələrdir. Laylalarda ananın övladı ilə bağlı arzu, istəkləri yüksək poetik bir dillə tərənnüm edilir. Burada əsas məqsəd körpəni rahatlatmaq, onun yuxuya getməsini təmin etməkdir. Bundan başqa, analar laylalar vasitəsilə övladının yolunda çəkdiyi

əziyyətlərin ona xoş olduğunu sərgiləyir, ürəklərindəki arzuları dilə gətirirlər. Laylalar şagirdlərdə anaya məhəbbət hissini qüvvətləndirir.

Laylay dedim yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində
Şirin yuxu tapasan. [3,110].

Sinifdənxaric oxu dərsliyinin 6-cı bölməsində mənimsədilən digər xalq yaradıcılığının məhsulu olan bayatılar Azərbaycan şifahi xalq yaradıcılığının ən geniş yayılmış növlərindəndir.

Bu el nümunələrində şagirdlərə xarici işğalçılara və yerli istismarçılara qarşı xalq nifrəti, doğma vətənə bağlılıq, yurd sevgisi, əməksevərlik, dostluqda sədaqət, mərdlik, xeyirxahlıq və sair kimi müsbət keyfiyyətlər aşılanır.

Dostlar üz-üzə gəldi,
Dağ aşıb düzə gəldi,
Azadlıq sevən ellər,
Köməyə bizə gəldi. [3,111].

Dərslikdə verilən digər folklor nümunəsi olan tapmacalar uşağın zehni qabiliyyətini, ağlının çevikliyini yoxlamaq məqsədilə yaradılan ədəbi janrdır. Tapmacada hər hansı bir əşyanın əlaməti üstüörtülü şəkildə verilir, müxtəlif formalı əşyalara bənzədilir, onun tapılması tələb olunur. Burada uşaqlar ətraf aləm - təbiət, bitki, heyvanlar və s. barədə məlumatlar toplayır.

Qanadı var, quş deyil,
Buynuzu var qoç deyil. [3,114].

Mən gedirəm,o da gedir,
Mən dururam,o da durur. (Kölgə) [3,115].

Uşaqlar ibtidai sinifdən düşünməyə, formalaşmağa başlayır. Xüsusən nağılların köməyilə şagirdlərə müxtəlif əxlaqi keyfiyyətlər aşılanır. Birinci sinif dərsliyində, 6-cı bölgüdə "Şir və siçan" adlı bədii mətn verilmişdir. Burada şir siçanı tutur. Siçan onu buraxmasını xahiş edir, əvəzində ona yaxşılıq edəcəyini deyir. Bu şirə gülməli gəlir, amma, düşünmür ki, nə zamansa siçan onu dardan qurtarar. Bu belə də olur. Ələ keçən şirin imdadına siçan gəlib yetişir. Siçan bu vaxt şirə "Zamanı gəldiyində sənə yaxşılıq edərəm" ifadəsinə güldüyü zamanı xatırladır. İzah etmək istəyir ki, mən kiçik olsam da yaxşılıq edə bilərəm.

Şirin timsalında yaxşılıq qarşılıqsız, düşünülmədən edilmişdir. Buradan da şagirdə hər zaman yaxşılıq edərkən qarşılığını gözləmədən lazım olduğu bildirilir, onun dəyərinin heç zaman itirilməyəcəyinə inandırılır [2, 126].

İkinci siniflərin "Sinifdənxaric oxu" dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri

İkinci sinif dərsliyində bədii mətnlər bu bölgüdə verilmişdir;

1) Lətifələr
2) Atalar sözləri

3) Tapmacalar
4) Təmsillər
5) Nağıllar

İkinci sinif dərsliyində mənimsədilən bədii mətnlərdən biri “Çil Toyuq və Siçan Balaları” adlanır. Burada uşaqlara qazanmaq üçün zəhmət çəkməyin vacibliyi bildirilir. Nağıldan “İşləməyən, dişləməz" atalar məsəlinin aşıladığı məna meydana çıxır. Siçanlar kömək etmədikləri üçün kökədən yeyə bilmədilər. Uşaqlar düşünür ki, əziyyət çəkən həmişə bəhrəsini görür. [4, 114].

İkinci sinif dərsliyində 2-ci bölmədə atalar sözləri verilmişdir ki, onlar müxtəlif əxlaqi keyfiyyətlərin öyrədilməsi istiqamətində çox dəyərli vasitədir;

Halva-halva deməklə ağız şirin olmaz.
Torpaq deyər:”Öldür məni, dirildim səni" və s. [4, 89-90].

Bu bir həqiqətdir ki, böyüklər həmişə, hər bir dövrdə öz övladlarının tərbiyəsilə məşğul olmuşlar. Bu tərbiyə yalnız onları əməyə alışdırmaq, vətəni müdafiəyə hazırlamaqdan ibarət olmamışdır. Uşaqların daxili aləmi, mənəviyyatı, əxlaqı, davranışı da onları daim düşündürmüş, narahat etmişdir. Xalqın şifahi şəkildə yaradıb yaşatdığı bu nümunələr uşaqların tərbiyəsində mühüm rol oynamışdır. [1, 256].

Üçüncü siniflərin “Sinifdənxaric oxu” dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri

Üçüncü sinif dərsliyində bədii mətnlər bu bölgüdə verilmişdir;
1) Lətifələr
2) Əfsanələr
3) Rəvayətlər
4) Nağıllar
5) Dastanlar

İnsan hər zaman pulunun, şan-söhrətinin gücünə görə deyil, ağlın gücünə inanmalıdır. Buna misal olaraq 5-ci bölmədə “Bostançı və Şah Abbas” nağılını misal göstərmək olar. Bostançı öz ağlı ilə şaha qalib gələrək qarpızın yerinə xurcun dolusu qızıl əldə edir. Daha sonra vəziri çaş-baş salaraq atını əlindən alır. [5, 37-42].

Dördüncü siniflərin “Sinifdənxaric oxu” dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri

Dördüncü sinif dərsliyində bədii mətnlər bu bölgüdə verilmişdir;
1. Vətənimiz Azərbaycan
2. İnsan və cəmiyyət
3. Dəyərlərimiz
4. Dəyişən dünyamız
5. Ətraf mühit və sağlamlıq
6. Macəra dünyamızın qəhrəmanları

Dördücü sinif dərsliyində “Dəyərlərimiz” bölgüsündə “Kitabi-Dədə Qorqud” dastanından “Qazan xan və oğlu Uruz” boyu verilmişdir. Burada gənc surət olan Uruzun timsalında bir çox müsbət keyfiyyətlər əks olunmuşdur [6, 42].

**Məqalənin aktuallığı.** Məqalə ibtidai siniflərdə oxu dərslərində öyrədilən folklorla bağlı mətnlərin təhlilinə həsr edilmişdir. Müasir dövrümüzdə Azərbaycan dili (Sinifdənxaric oxu) dərslərində folklor mətnlərinin köməyilə şagirdlərə əxlaqi keyfiyyətlərin aşılanması aktuallıq

kəsb edir. Bu istiqamətdə dərsliklərdə verilən mətnlərin təhlili və müqayisəsi aktualdır.

**Məqalənin elmi yeniliyi.** İbtidai siniflərdə tədris edilən folklor mətnlərinin özünəməxsusluqlarının aşkarlanması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatdan alınan qənaətlərdən Müasir Azərbaycan dili, Oxu, Həyat Bilgisi fənlərinin tədrisi zamanı istifadə etmək olar.

## Ədəbiyyat

1. Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı: Ali məktəb üçün dərslik. Bakı: Elm və təhsil, 2012.
2. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Ali məktəb üçün dərslik. Bakı, 2007.
3. Sinifdən xaric oxu: I sinif üçün dərslik. Bakı: Turan evi, Bakı, 2009, 160 s.
4. Sinifdənxaric oxu: II sinif üçün dərslik. Bakı, Altun kitab, 2017, 112 s.
5. Sinifdən xaric oxu (III sinif üçün dərslik). Bakı: Altun kitab, 2018, 128 s.
6. Sinifdən xaric oxu (IV sinif üçün dərslik), Bakı: Bizim Kitab, 120 s.

**А.К. Гулусой**

## Роль фольклорных текстов в нравственном воспитании используемых на внеклассных уроках чтения

## Резюме

Развитие навыков чтения, понимания прочитанного и развитие навыков работы с письменными текстами всегда были в центре внимания учащихся начальной школы. Слушание и понимание - это один из основных видов деятельности, используемый учителем до тех пор, пока ученики не приобретут привычку читать и понимать. Учителя используют слушание и понимание во всех возрастных периодах. Однако этот вид деятельности более распространен до тех пор, пока не сформируется привычка к чтению, то есть в течение определенного периода начальной школы.

Стратегическое чтение учит учащихся начальной школы задавать вопросы, получать новые знания, быстро думать, обмениваться идеями, делать выводы из прочитанного и использовать все это для решения проблем, возникающих в жизни.

**A.K. Gulusoi**

## The role of folklore texts in morality and upbringing used in extracurricular reading lessons

## Summary

The development of reading habits, reading comprehension, and the development of working skills on written texts have always been the focus of interest in primary school students. Listening and understanding is one of the main types of activities used by the

teacher until students develop the habit of reading and understanding. Teachers use listening and understanding in all age periods. However, this type of activity is more prevalent until the reading habit is formed, that is, for a certain period of primary school.

Strategic reading teaches primary school students ask questions, gain new knowledge, think fast, to exchange ideas, draw conclusions from what they read, and to use all of these in solving problems encountered in life.

**Redaksiyaya daxil olub:** 06.11.2019